legal quiz

**Biliklə fərq yarat**

# Qanun Xəbərləri

*1-ci buraxılış*

Hörmətli istifadəçilər,

Aşağıdakı normativ aktlarda aşağıdakı məzmunda dəyişikliklər edilmişdir. Müvafiq dəyişikliklər əsasında legalquiz.az saytının test bazası təkmilləşdirilmişdir:

1. **Şəhərsalma və Tikinti Məcəlləsi**

Mülkiyyətdə, icarədə və ya istifadədə olan torpaq sahəsində aparılan və tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin siyahısına (maddə 79) aşağıdakı əlavə olunub:

- *mövcud tikinti obyektinin torpaq sahəsində (tikinti sahəsi istisna olmaqla), yaxud fərdi yaşayış evinin həyətyanı torpaq sahəsində elektrik mühərrikli nəqliyyat vasitələri üçün yerləşdirilən elektrik enerjisi dolduruculari.*

2. **“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunları**

Siyahıdakı ilk iki Qanuna aşağıdakı əlavə olunub:

- *bələdiyyə büdcəsinin gəlirləri və xərcləri bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində əks olunur. Bələdiyyə büdcəsinin xərcləri həmin informasiya sistemi vasitəsilə həyata keçirilir və müvafiq ödənişlər ödəniş xidməti təchizatçıları vasitəsilə təmin edilir.*

“Nağdsız hesablaşmalar haqqında” Qanuna isə edilən dəyişikliklə:

- bələdiyyələrə ödənilən xidmət haqları və digər yığımlar nağdsız qaydada aparılmalıdır.

Dəyişikliklərlə əlaqədar suallarınız olarsa, bizimlə əlaqə saxlaya bilərsiniz.

Hörmətlə,
Legal Quiz komandası

Veb-sayt: legalquiz.az
Elektron poçt: support@legalquiz.az
Ünvan: Nizami küçəsi 2, Bakı, Azərbaycan